هيثم سرحان

MahadSunnah

# من فقه الأطعمة والأشربة

# Yemək və içməyin fiqhi


## Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri


Azərbaycan dili

اللغة الأذرية

Tərcümə edən: İlqar Eyvazoğlu


ALSARHAAN.COM

MAHADSUNNAH.COM

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

Yemək-içməyin əsli Allahın ﷻ bu kəlamına görə halaldır:

قال تعالى: ﴿يَٰٓأَيُّهَا ٱلنَّاسُ كُلُواْ مِمَّا فِي ٱلۡأَرۡضِ حَلَٰلٗا طَيِّبٗا وَلَا تَتَّبِعُواْ خُطُوَٰتِ ٱلشَّيۡطَٰنِۚ إِنَّهُۥ لَكُمۡ عَدُوّٞ مُّبِينٌ ١٦٨﴾ [البَقَرَة : ١٦٨]

“Ey insanlar! Yerdə olan halal və təmiz ruzilərdən yeyin”.[1]

Yalnız leş ət, qan, donuz əti, şərablar və s. kimi dəlillərlə qadağan olan şeylər istisnadır.

Şəriətdə yeyilməsi haram olan şeylərdən biri də:

- İnsana zərərli olduğu sübut olunan hər bir şey.

Allah ﷻ buyurur:

قال تعالى: ﴿وَلَا تَقۡتُلُوٓاْ أَنفُسَكُمۡ﴾ [النِّسَاء : ٢٩]

“Özünüzü məhv etməyin”.[2]

- Eləcə də nəcis olan yemək və içmək.

Allah ﷻ buyurur:

[1] əl-Bəqərə surəsi, 168-ci ayə
[2] ən-Nisa surəsi, 29-cu ayə

قال تعالى: ﴿وَيُحَرِّمُ عَلَيۡهِمُ ٱلۡخَبَٰٓئِثَ﴾ [الأَعْرَاف : ١٥٧]

“Murdar şeyləri onlara haram edər.”[3]

Allah ﷻ onlara murdar şeyləri haram etmişdir. Nəcis də murdar şeylərdəndir.

- Narkotik maddələrin hər bir növünü qəbul etmək də qadağandır.

Peyğmbər ﷺ buyurub:

"Hər bir sərxoş edicilər ağılı başdan alır. Hər bir ağılı başdan alan isə haramdır."[4]

- Bu dövrdə yayılan və ondan çəkinmək və ehtiyat etmək lazım olan haramlardan biri də siqaret çəkməkdir. Çünki o da murdar şeylərdəndir.

Bunda bədənin ölümcül xroniki xəstəliklərlə zədələnməsi və yoluxması vardır. Bu, müasir tibbi araşdırmalarla sübut edilmişdir.

- Həkim tövsiyəsi və zərurət olmadıqca yuxu qaçıran və yuxu gətirən dərmanaları da içmək qadağandır.

Çünki bunda onun istifadəçilərinə zərərli təsirləri vardır.

---

[3] əl-Əraf surəsi, 157-ci ayə
[4] Muslim 2003